**"2022-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr haqqında" Yevlax Şəhər İcra Hakimiyyətinin Başçısının**

# HESABATI

## SOSİAL-İQTİSADİ GÖSTƏRİCİLƏR

- Yevlax rayonu 05 fevral 1935-ci ildə təşkil olunmuşdur. Sahəsi 1,47 min kv.km-dir. Ərazi vahidlərinin sayı 50. O cümlədən: 1 şəhər, 3 qəsəbə, 46 kənd, inzibati ərazi dairələrinin sayı 20. O cümlədən: 1 sahə inzibati ərazi dairəsi, 1 qəsəbə inzibati ərazi dairəsi, 19 kənd inzibati ərazi dairəsi. Mərkəzi Yevlax şəhəridir.

- 01 yanvar 2022-ci il tarixə əhalinin sayı 127243 nəfərdir. 1 kv.km düşən əhalinin sayı 86 nəfərdir. O cümlədən: şəhər əhalisinin sayı 71308 nəfər, kənd əhalisinin sayı 55935 nəfərdir. Kişilərin sayı 62298 nəfər, qadınların sayı 64945 nəfərdir. Doğulanların sayı 2021 nəfər, ölənlərin sayı 864 nəfərdir. Təbii artım 1157 nəfərdir.

- 01 yanvar 2022-ci il tarixə rayonun ümumi torpaq fondu 153734,0 hektardır. O cümlədən: 92641,0 hektar kənd təsərrüfatına yararlı torpaqlar, 61093,0 hektar istifadə olunmayan torpaqlardır.

- Əmək qabiliyyətli yaşadək əhalinin sayı 31600 nəfər, əmək qabiliyyətli yaşda əhalinin sayı 85000 nəfər, əmək qabiliyyətli yaşdan yuxarı əhalinin sayı 11800 nəfərdir.

- Məşğul əhalinin sayı 54800 nəfər, muzdla işləyənlərin sayı 13008 nəfərdir.

- Pensiyaçıların sayı 14662 nəfər, təyin olunmuş aylıq pensiyanın orta məbləği 276,14 manatdır. Ünvanlı dövlət sosial yardımı təyin olunmuş ailə üzvlərinin sayı 5696 nəfər, bir nəfərə düşən aylıq ünvanlı dövlət sosial yardımının məbləği 65,93 manatdır.

## ÜMUMDAXİLİ MƏHSUL İSTEHSALI

- 2022-ci ildə ümumdaxili məhsulun həcmi 436,9 milyon manat olmuşdur. Bu da 2021-ci ildə olduğundan 51,8 milyon manat və yaxud 13,4 faiz çoxdur.

- Ümumdaxili məhsulun 42,7 faizi istehsal 57,3 faizi isə xidmətdir. Keçən illə müqayisədə istehsal 164,8 milyon manat, xidmət isə 220,4 milyon manat təşkil etmişdir.

- Ümumdaxili məhsulun 26,2 milyon manatını sənaye, 138,5 milyon manatını kənd təsərrüfatı, 22,0 milyon manatını tikinti, 159,7 milyon manatını ticarət, 8,1 milyon manatını nəqliyyat, 1,95 milyon manatını rabitə və digər xidmətləri isə 80,5 milyon manatını təşkil etmişdir.



- 2022-ci ildə (adambaşına) hər nəfərə 3434 manat ümumdaxili məhsul istehsal olunmuşdur ki, bu da əvvəlki illə müqayisədə 98 manat və yaxud 2,9 faiz çoxdur.

## ƏHALİNİN PUL GƏLİRLƏRİ

- Orta aylıq əmək haqqı 543,2 manat olmuşdur və əvvəlki ilə nisbətən 83,0 manat artmışdır.

## BÜDCƏ, MALİYYƏ, BANK, SOSİAL MÜDAFİƏ VƏ MƏŞĞULLUQ SAHƏSİ ÜZRƏ

- 2022-ci ildə şəhərin büdcə gəlirləri 11 milyon 624 min 429 manat, büdcə xərcləri 10 milyon 903 min 642 manat olmuşdur.

- 2021-ci ildə büdcə gəlirləri 10 milyon 514 min 517 manat olmuşdur. Ötən il ilə müqayisədə büdcə gəlirləri 2022-ci ildə 10,5 faiz artmışdır.

- Rayonda 4 bank filialı fəaliyyət göstərir.

- 2022-ci ildə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 86 sahibkara 1612,6 min manat güzəştli kredit verilmişdir.

- 2022-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər şöbəsi tərəfindən 12349 nəfər pensiya ilə 12796 nəfər isə müavinət və təqaüd ilə təmin olunmuşdur.

## TİCARƏT VƏ XİDMƏT SAHƏSİ ÜZRƏ

- 2022-ci ildə pərakəndə əmtəə dövriyyəsi və pullu xidmətlərinin ümumi həcmi 159,7 milyon manat olmuşdur. Bu da 2021-ci illə müqayisədə faktiki qiymətlə 6,8 faiz müqayisəli qiymətlə isə 10,2 milyon manat çox olmuşdur.

- Hesabat ilində 23 ticarət və xidmət obyekti tikilib istifadəyə verilmişdir.

- Yeni tikilən ticarət və xidmət obyektləri müasir dizaynla tikilərək şəhərin ümumi görkəminə uyğunlaşdırılmışdır. Hazırda rayonda mindən çox ticarət, iaşə və xidmət obyekti əhaliyə müxtəlif xidmətlər göstərir.

## NƏQLİYYAT SAHƏSİ

- 2022-ci ildə rayonda fəaliyyət göstərən nəqliyyat müəssisələri üzrə göstərilən xidmətdən əldə olunan gəlirin həcmi (fiziki şəxslər də daxil olmaqla) 8143 min manat olmuşdur ki, bu da əvvəlki il ilə müqayisədə 28,9 faiz çoxdur.

- 2022-ci ildə rayon üzrə avtomobil nəqliyyatı ilə (fiziki şəxslər də daxil olmaqla) 1496 min ton yük daşınmışdır ki, bu da ötən il ilə müqayisədə 10,8 faiz çoxdur. Bu nəqliyyat növündə yük dövriyyəsi ötən il ilə müqayisədə 11,7 faiz artaraq 108,2 mln ton-km təşkil etmişdir.

- 2022-ci ilin hesabatı dövründə avtomobil nəqliyyatı ilə (fiziki şəxslər də daxil olmaqla) 18351 min sərnişin daşınmış və bu daşınmalar ötən il ilə müqayisədə 23,6 faiz artmışdır. Sərnişin dövriyyəsi ötən il ilə müqayisədə 22,6 faiz artaraq 66,3 min sərnişin-km təşkil etmişdir.

- 2023-cü ilin yanvarın 1-i vəziyyətinə rayonda bütün nəqliyyat növləri üzrə cəmi 13649 ədəd avtomobil mövcud olmuşdur. Onlardan 1533 ədədini (11,2 faiz) yük avtomobilləri, 67 ədədini (0,5 faiz) xüsusi təyinatlı avtomobillər, 302 ədədini (2,2 faiz) avtobus, 11704 ədədini isə (85,7 faiz) minik avtomobilləri təşkil edir. Şəxsi minik avtomobilləri cəmi avtomobillərin 85 faizini və ya 11606 ədəd olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 4,2 faiz çoxdur.

- Rayon üzrə avtomobillərin sayında əvvəlki il ilə müqayisədə 3,8 faiz artım müşahidə olunmuşdur. Ondan yük avtomobilləri üzrə 2,1 faiz, avtobuslar üzrə 0,7 faiz, minik avtomobilləri üzrə 4,3 faiz çox, xüsusi təyinatlı avtomobillər üzrə isə 4,7 faiz çox olmuşdur.

- Hazırda hər 1000 nəfərə düşən avtomobillərin sayı 104 ədəd, hər 100 ailəyə düşən şəxsi minik avtomobillərin sayı isə 48 ədəddir. Keçən illə müqayisədə bu göstərici müvafiq olaraq 4,0 faiz və 4,3 faiz artmışdır.

## AQRAR SAHƏ ÜZRƏ

- Hesabat dövründə ümumilikdə 138,4 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da əvvəlki ilə nisbətən 26,4 faiz çoxdur.

- 2022-ci ilin məhsulu üçün rayonda 7147 hektar buğda, 5860,0 hektar arpa əkilmişdir. Buğda məhsulu 26301 ton olmaqla 36,8 sentner, arpa məhsulu 17404,2 ton olmaqla məhsuldarlıq 29,7 sentner olmuşdur. Taxıl istehsalı keçən ilə nisbətən 10 % artaraq 43705,2 ton olmuşdur. 16580 hektar təzə yonca bitkisi və digər kənd təsərrüfatı bitkiləri əkilib becərilmişdir.

- Rayonda 2022-ci ildə 2702,2 hektarda pambıq əkilmiş, 8571,8 ton pambıq istehsal olunmuşdur və məhsuldarlıq 31,7 sentner olmuşdur.

- 2022-ci ildə 5818,4 kq barama tədarük olunmuşdur. Baramaçılığın inkişafı məqsədi ilə mühüm vəzifələr qarşıya qoyulmuş, 2022-ci ildə rayonda 12000 ədəd tut tingi əkilmişdir. Mövsüm ilində icra nümayəndələri və bələdiyyələr baramaçılarla işi nəzarətdə saxlamalı, əhalinin məşğulluğunun və gəlirlərinin artırılması üçün bu vacib sahənin inkişafına nail olmalıdırlar.

- 2022-ci ildə iribuynuzlu mal-qaranın baş sayı 73045 olmuşdur. Bundan 30306 başı ana maldır. 2022-ci ildə 2021-ci ilə nisbətən xırda buynuzlu mal-qaranın sayı 130 baş artaraq 174643 baş olmuşdur. Hesabat ilində quşların sayı 22 baş artaraq 455918 baş olmuşdur.

- 2022-ci ildə 9138,4 ton ət, 38062,4 ton süd, 18182 min ədəd yumurta və 342 ton yun ishehsal olunmuşdur. Keçən ilə nisbətən ət istehsalı 62 ton, süd istehsalı 710,5 ton, yumurta istehsalı 272 min ədəd çox olmuş, 0,4 ton yun az olmuşdur.

- “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” çərçivəsində rayonun Nuralılar kəndində 1 ədəd, Hacımahmudlu kəndində 1 ədəd subartezian quyusu qazılaraq istifadəyə verilmişdir.

- Yevlax rayonunda 188 ədəd hidrotexniki qurğularda və 10 ədəd nasos stansiyalarında cari təmir işləri aparılmışdır. 5 km beton və asma nov kanallarda, 1 km boru kəmərlərində cari təmir işləri aparılmışdır. 582 km uzunluğunda suvarma və kollektor-drenaj şəbəkələri mexanizmlərlə lildən təmizlənmişdir.

- Rayonun Aran bələdiyyəsinin ərazisində 2855,0 hektar əkin sahəsində Aqropark yaradılmışdır.

- Yevlax Pilot Aqroparkda əkin fəaliyyətinin həyata keçirilməsi məqsədilə ayrılmış torpaq sahələrinin koordinatları barədə məlumatlar layihəyə cəlb olunan sahibkarlıq subyektlərinə təqdim edilərək ilkin hazırlıq işlərinin başlanılması prosesinə start verilmişdir.

- "Sumqayıt Kimya Sənaye Parkı" MMC Yevlax Pilot Aqroparkın 2855 ha ərazisinin 1687.3 ha torpaq sahəsi üzrə 17 sahibkarlıq subyekti ilə 20 torpaq icarə müqaviləsi bağlanmışdır.

- "Sumqayıt Kimya Sənaye Parkı" MMC Yevlax Pilot Aqroparkın birinci mərhələ üzrə müvafiq infrastrukturun qurulması istiqamətində mobilizasiya və tikinti-quraşdırma işlərinə başlanılmışdır. Prosesin 2023-cü ilin fevral ayının sonunadək yekunlaşdırılması planlaşdırılır.

- İlkin hazırlıq işlərinin yekunlaşdırılması və əkin işlərinə başlanılması sahibkarların diqqətinə çatdırılmışdır.

- "Sumqayıt Kimya Sənaye Parkı" MMC Yevlax Pilot Aqroparkın ilk rezidenti olan "İSFA" MMC-yə ayrılmış ərazinin 10 hektarında düzgün aqrotexniki qulluq işləri (dərin çarpaz riperləmə, şumlama, diskləmə, malalama və s.) və müasir suvarma sistemlərinin tətbiqi ilə tez yetişən gilas, nektarin, şaftalı, alça və ərik bağları salınmışdır. "İSFA" MMC tərəfindən tingçilik təsərrüfatının yaradılması çərçivəsində müasir suvarma sistemlərinin tətbiqi ilə 8 hektar ərazidə 500 min ədəd tingin calaqaltısı əkilmiş, həmçinin ölkə daxili satışlarla yanaşı Gürcüstan (qoz) və Qırğızıstanla (gilas, nektarin, şaftalı) tinglərin satışı üzrə müqavilələr bağlanmışdır. "İSFA" MMC tərəfindən 11 nəfər daimi, 30 nəfər mövsümi iş yerləri yaradılmışdır.

- Torpaq analizlərinin nəticələri və iqlim məlumatlarının təhlilinə uyğun olaraq əkiləcək bitkilər müəyyən olunmuş və həmin bitkilərin əkilməsi ilə bağlı parsellərin bölgüsü aparılmışdır.

- "Azərşəkər" MMC icarəyə verilmiş 2000,0 hektar əkin sahəsində fəaliyyətini davam etdirərək yeni infasturukturlar yaradır.

- 2022-ci il ərzində "Azərşəkər" MMC-də "Dastan Agro" MMC-də 10 KVA gücə malik 6,5 km elektrik xətti inşa edilmişdir. "Dastan Agro" MMC-də 3 əd 63 KVA, 1 əd 40 KVA KTM inşa olunmuş və 10 ədəd pivotların boru və elektrik xəttlərinin inşası həyata keçirilmişdir. "Azərşəkər" və "Dastan Agro" MMC-də 1451,0 ha torpaq sahəsində (şəkər çuğunduru, soya, qarğıdalı) yazlıq əkini aparılmış və 258,0 ton qarğıdalı, 85 ton soya, 11271 ton şəkər çuğunduru yığılmışdır. Həmçinin 4500 ton taxıl biçilmişdir.

- 2022-cü ilin IV rübündə 2000 hektar payızlıq əkini (taxıl) aparılmışdır."Azərşəkər" MMC tərəfindən 390 hektar torpaq sahəsində müasir suvarma sistemlərinin (pivot və spinker sistemi) qurulmasına başlanılmışdır.

## ƏRAZİ İDARƏETMƏ VƏ BƏLƏDİYYƏLƏRLƏ İŞ SAHƏSİ ÜZRƏ

- Rayonda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 2 qəsəbə, 46 kənd yaşayış məntəqəsi vardır. 21 inzibati ərazi dairəsi, 29 bələdiyyə fəaliyyət göstərir.

- 01 yanvar 2022-ci il tarixə rayonun əhalisi 127 min 243 nəfər təşkil etmişdir. İl ərzində əhalinin sayı 392 nəfər artmışdır. Əhalinin keçən ilə nisbətən artımı əsasən doğuşların və şəhərə gələnlərin sayının artması hesabına olmuşdur. 2022-ci il ərzində 721 nikah bağlanmış və 2021 uşaq doğulmuşdur.

- Qeyd etmək lazımdır ki, bəzi qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin və bələdiyyələrin fəaliyyəti tələb olunan səviyyədə deyildir. Bələdiyyə torpaqlarından səmərəli

istifadə olunmasına lazımi nəzarət təmin edilməmişdir. Torpaq mülkiyyətçiləri, istifadəçilər ilə pambıq əkini aparılması üçün iş aparılmalıdır. Xüsusilə əkin yerlərindən başqa məqsədlər üçün istifadə olunması halları çoxdur. Əkin yerlərindən biçənək kimi istifadə olunması halları xüsusilə qeyd olunmalıdır. Bələdiyyələr tərəfindən vergi və rüsumların yığılması üçün lazımi iş aparılmır ki, bu da onların büdcəsinə mənfi təsir edir. Vətəndaşların problemlərinin öyrənilməsi və onların müraciətlərinə baxılması işi həmişə lazımi səviyyədə olmur. Ona görə də bəzən xırda məsələlərlə əlaqədar vətəndaşlar Şəhər İcra Hakimiyyətinə və ya yuxarı orqanlara müraciətlər edirlər. Odur ki, qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklər və bələdiyyələr əhalini narahat edən problemləri ilə ciddi məşğul olmalı və öz işlərində dönüş yaratmalıdırlar. Vətəndaş-məmur münasibətlərində hər bir vəzifəli şəxs diqqətli olmalıdır.

- Şəhər İcra Hakimiyyəti Başçısı aparatı ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndələrlə, bələdiyyələrlə lazımi iş aparmalı, onların fəaliyyətinin daha da yaxşılaşdırılması üçün tələbkarlığı artırmalıdırlar.

- Rayonda 29 bələdiyyə vardır ki, onların əhatə etdiyi 48 saylı Yevlax seçki dairəsində 55 seçki məntəqəsi və 49 saylı Yevlax-Mingəçevir seçki dairəsində isə (Yevlax rayonu üzrə) 38 seçki məntəqəsi mövcuddur.

## TİKİNTİ-QURAŞDIRMA, ABADLIQ SAHƏSİ ÜZRƏ

- Heydər Əliyev prospektində yerləşən 6, 8 və 24 saylı yaşayış binalarının fasadlarının müasir tələblərə uyğun olaraq təmiri işləri aparılmış, pilləkən qəfəsəsində yerləşən köhnə taxta pəncərə blokları, yeni metal-plastik pəncərə blokları ilə əvəz olunmuşdur. Binalar təmir olunan zaman mənzillərdə yaşayan əhali tərəfindən quraşdırıcılar peyk antenaları, kondisionerlər müasir tələblərə uyğun olaraq binanın fasadlarına xüsusi mütəxəssislər dəvət olunaraq yerləri dəyişdirilmişdir.

- Ümumi sahəsi 26034 kv.metr olan 7 küçədə (M.Ə.Rəsulzadə, Q.Quliyev, Y.Yevlax, Azərbaycan, R.Behbudov, Zərdabi, Pişəvəri küçələri) əsaslı yol tikintisinə start verilmiş, bunula yanaşı səkilərdə 6273 paqon metr beton səki daşları quraşdırılmış və 2454 kv.metr tamet səki daşları düzülmüşdür.

- "Bizim həyət" layihəsi çərçivəsində 2-ci layihə olaraq şəhərin Heydər Əliyev prospektində yerləşən 6 və 8 saylı binaların həyətində abad həyət salınmışdır. Abad həyətdə 443 paqon metr beton səki daşları quraşdırılmış, 629 kv.metr tamet səki daşları düzülmüş, qazonlara su xətləri çəkilmiş və münbit torpaq verilmişdir.

- Şəhərin Heydər Əliyev prospektində yerləşən səkilərində abadlıq işləri aparılmışdır. Belə ki, səkilərə 2400 paqon metr beton səki daşları quraşdırılmış, 6000 kv.metr tamet piltə düzülmüş, 31 ədəd işıqlandırma dirəkləri quraşdırılmış, 28 ədəd oturacaq qoyulmuş, 15 ədəd isə tullantılar üçün nəzərdə tutulan qablar quraşdırılmışdır. Qazonlara su xətti çəkilmiş, münbit torpaq verilmiş ağac və gül kolları əkilmişdir.

- Şəhərin Pişəvari küçəsində müasir tələblərə uyğun olaraq yeni "Dostluq" parkının tikintisinə başlanılmışdır.Dostluq parkında 2255 $m^2$ tamet piltə, 683 paqon metr bardurdan istifadə olunmuşdur. Parkda yerləşən heykəlin ətrafı təmir olunmuş və 7 ədəd oturacaq düzəldilmiş və aqlayla üzlənmişdir.

- Kapital Bankın binası müasir tələblərə uyğun olaraq yenidən quraşdırılmışdır.

## İNFRASTRUKTURUN YAXŞILAŞDIRILMASI

### İçməli su təminatı

- Yevlax Sukanal sahəsi rayon mərkəzi, Qaçqınlar və məcburi köçkünlər üçün tikilmiş qəsəbə, İravanlı qəsəbəsi və Yuxarı Qarxun kəndi daxil olmaqla ümumilikdə 9467 abonentə xidmət edir. Bundan 9224 abonent əhali 243 abonent qeyri əhali kateqoriyasına aiddir.

- 2004-2022-ci illərdə şəhərdə 52,2 km, kəndlərdə 300.0 km, cəmi 352.2 km paylayıcı su xəttləri çəkilmişdir. Kür çayı sahilində şəhərə su vuran nasos stansiyası tikilmişdir. 530 mm-lik boru ilə 3.1 km xətt çəkilmişdir.

- 2004-2022-ci illərdə rayonun 28 kəndində 30 ədəd içməli su təmizləyici qurğu quraşdırılmış və 457 ədəd bulaq tikilmişdir.

- Sukanal idarəsi tərəfindən əhaliyə xidmət göstərmək üçün 26 ədəd artezian və subartezian quyuları vardır.Bunun 10-nu artezian, 16-sı isə subartezian quyusudur.

### Elektrik enerjisi təminatı

- Şəhərdə və rayon ərazisində əhalinin və istehsalat sahələrinin fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunması həyata keçirilmişdir.

- Yevlax rayonunda 2022-ci il ərzində 152968 mln.kvt/s elektrik enerjisi istehlak olunmuş, texniki itki nəzərə alınmaqla faydalı enerjinin sərfiyyatı 137,977 mln.kvt/s, enerjinin dəyəri 13,073 mln. manat olmuşdur. Ümumi yığım faizi 97,1% təşkil etmişdir.

- 2021-2022-ci illərin tədbirlər planında nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi üçün şəbəkənin balansında olan 35/10/6-0,4kV-luq EVX-lərdə, y/st-larda əsaslı və cari təmir işləri aparılmışdır.

- 35/6kV-luq Kövər-Nasos y/st-da 1 ədəd zədəli yağ açarı yeni vakuum açarla əvəz olunmuş, suvarma nasoslarının normal iş rejimi təmin olunmuşdur. 10kV-luq II-Fider, 10kV-luq III-Kənd, 10kV-luq II-Kənd, 10kV-luq POŞ,6kV-luq 14-Fider, 6kV-luq Meyvəli hava xətlərinin mühafizə zonasında yaşıl kütlə təmizlənmiş, əyri dayaqlar düzəldilmişdir. 22 ədəd 10/6-0,4kV-luq KTM-lərdə əsaslı və cari təmir işləri aparılmış, 5 ədəd zədəli transformatorlar yenisi ilə əvəz olunmuşdur. 0,4kV-luq şəbəkələrin yenidən qurulması üçün rayonun Yuxarı Qarxun kəndində 1 ədəd müasir tipli 160 kVA komplekt transformator məntəqəsi quraşdırılmış və şəbəkəyə qoşulmuşdur. Hal-hazırda abonentlərin yeni çəkilmiş SİP hava xəttinə köçürülməsi işləri aparılmaqdadır.

- 2022-ci il ərzində **"ASAN Xidmət"** Mərkəzi tərəfindən verilmiş texniki şərtlərə əsasən 263 ədəd əhali, 79 ədəd qeyri-əhali istehlakçılarına yeni sayğac quraşdırılmış, 1239 ədəd köhnə tipli sayğaclar müasir tipli sayğaclarla əvəz olunmuşdur.

- Yevlax EŞ-nin xidmət ərazisində yanğın baş verə biləcək bütün halların qarşısının alınması məqsədi ilə 10/6/0,4kV-luq bütün TM-lərin ətrafı alaq otlarından, 35/10/6-0,4kV-luq EVX-lər

yaşıl kütlədən təmizlənmiş, əyri dayaqlar düzləndirilmiş, sallaq naqillər tarımlanmışdır. Bu kimi işlər mütəmadi olaraq davam etdirilir.

- Bundan sonra da elektrik enerjisi təchizatının yaxsılaşdırılması sahəsində məqsədyönlü işlər davam etdiriləcəkdir.

**Təbii qaz təminatı**

- Yevlax rayonunun 50 yaşayış məntəqəsi təbii qazla təmin olunmuş və beləliklə rayonun qazlaşdırılması tam başa çatmışdır.

- 2022-ci ilin yekunlarına görə 2788 abonentin qaz sayğacları yeni sayğaclarla əvəzlənmişdir. Bundan əlavə 8151 ədəd sayğaclarda yaranmış qaz sızmaları ləğv edilmişdir. Fərdi qaydada 261 abonentə layihə əsasında yeni qaz xətləri çəkilərək qazın verilişi təmin olunmuşdur.

- 2022-ci il ərzində ümumilikdə 52 milyon 738 min 240 $m^3$ təbii qaz qəbul edilmişdir ki, bundan əhaliyə satılmış təbii qazın miqdarı 39 milyon 994 min 281 $m^3$, sənaye müəssisələrinə satılmış təbii qazın miqdarı isə 8 milyon 622 min 275 $m^3$ təşkil etmişdir. Əhali sektorundan daxil olan vəsaitin həcmi 6 milyon 29 min 977 manat, qeyri-əhali sektorundan daxil olan vəsaitin həcmi isə 1 milyon 911 min 977 manat olmuşdur. Əhali tərəfindən ödəniş 100,3 faiz təşkil etmişdir.

- Sukanal sahəsinin, Kommunal Təsərrüfatı İstehsalat Birliyinin, Elektrik şəbəkəsinin, Qaz İstismar sahəsinin rəhbərləri payız qış mövsümünün müvəffəqiyyətlə keçirilməsi üçün lazımi tədbirləri görməlidirlər.

## RABİTƏ XİDMƏTLƏRİ ÜZRƏ

- Əvvəlki illərə nisbətən əhaliyə göstərilən rabitə xidmətlərinin səviyyəsi və həcmi artmışdır.

- 2022-ci ildə "AZTELEKOM" MMC-nin Mərkəzi Aran Regional Filialının Yevlax şöbəsi tərəfindən əhaliyə göstərilən rabitə xidmətinin yaxşılaşdırılması sahəsində ardıcıl işlər aparılmış, 299 yeni internet istifadəçisi şəbəkəyə qoşulmuşdur.

- Qarabağ, Vətən müharibəsi iştirakçıları, şəhid ailələri və qazilərin müraciətlərinə baxılmış, telefon xətləri zədəli olanların xətləri bərpa edilmişdir. Şəhid ailələrinə ümumilikdə 54 yeni internet xətti verilmişdir.

- Xətt İstismarı Sektorunda, kənd və şəhər rabitə hava xətlərində mövsümə hazırlıq planına uyğun profilaktika işləri aparılmış , o cümlədən zədəli kabellər yenisi ilə əvəz edilmişdir.

- Ümumilikdə Xətt İstismarı Sektorunda 2760 m hava rabitə xətləri texniki normaya gətirilmişdir.

- Tanrıqulular kəndində yeni asfalt yolunun çəkilişi ilə əlaqədar olaraq yolkənarı rabitə dirəkləri yenisi ilə əvəzləşdirilmiş, o cümlədən hava rabitə xətləri texniki normaya uyğun çəkilmişdir.

- Orta məktəblərin yüksək keyfiyyətli internet xidməti ilə təmin edilməsi tədris proqramlarının keçirilməsi məqsədilə Yevlax şəhərində №1 , №2 , №5 , №4 , №6 , №9, №8 orta məktəblərə F/O kabeli çəkilmişdir. Hazırda son quraşdırma işləri aparılır.

- Smart City and Smart Village (Ağıllı kənd və rayon) layihəsi prinsiplərinə uyğun Yevlax şəhərində rabitə xidmətlərinin yüksək keyfiyyətliyi və dayanıqlığı üçün GPON (optik xidmət) layihəsinin icrası ilə bağlı surətli və keyfiyyətli işlər görülməkdədir.

- Yevlax şəhərində elə kəndlər vardır ki, ümumiyyətlə stasionar rabitə xidməti mövcud deyil. Həmin ərazilərdən Qaramanlı kəndi istiqamətində olan Dəlləklər, Nəmərli, Köyük kəndləri və Nərimanabad kəndi istiqamətində, Duzdağ qəsəbəsi o cümlədən Varvara kəndi istiqamətində olan Cırdaxan kəndi ümumilikdə 5 (beş) kənd 604 (altı yüz dörd) təsərrüfata yüksək keyfiyyətli və dayanıqlı rabitə xidmətləri ilə təmin etmək məqsədi ilə layihəyə uyğun işlər görulmüşdür. Hal-hazırda həmin ərazilərdə rabitə kabelləri çəkilmişdir. Tezliklə həmin ərazilər FO-rabitə xidmətləri ilə təmin ediləcəkdir.

- Şəhər mərkəzində GPON texnologiyası əsasında  rabitə şəbəkəsinin yenidən qurulması istiqamətində 4000 ədəd dirək basdırılmış, 100 km kabel çəkilmiş, 1000 m uzunluğunda yeraltı kanal tikilmişdir. 32-ci məhəllə və İrəvanlı qəsəbəsində test aparılmış, 5 abonent yeni GPON sisteminə qoşulmuşdur. Bununla yanaşı, kəndlərdə 2 ədəd 48 abonentlik, şəhər mərkəzində isə 1 ədəd 64 abonentlik internet avadanlığı quraşdırılmış. Xətt təsərrüfatında cari təmir işləri görülmüş 10 ədəd pristavkal, 2 km müxtəlif kabellər dəyişdirilmiş, yenisi ilə əvəz olunmuşdur. Mərkəzi ATS-də, Nərimanabad və Qoyunbinəsi ATS-lərində yeni OLT avadanlığı quraşdırılıb, istifadəyə verilmişdir. 45 ədəd yeni telefon çəkilmişdir.

- Kənd və şəhər rabitə hava xətlərində mövsümə hazırlıq planına uyğun profilaktika işləri aparılmış, o cümlədən zədəli kabellər yenisi ilə əvəz edilmişdir. Heydər Əliyev, Nizami prospektlərində, Zeynalabdin Tağıyev və Qanboy Quliyev küçələrində əsaslı təmir işləri görülmüşdür. Ümumilikdə Xətt İstismarı Sektorunda 2480 m hava rabitə xətləri texniki normaya gətirilmiş, 32 ədəd ağac dirək yeniləri ilə əvəzlənmişdir.

- Orta məktəblərin yüksək keyfiyyətli internet xidməti ilə təmin edilməsi tədris proqramlarının keçirilməsi məqsədilə Yevlax rayonu Aran qəsəbəsi 2, Kövər və Qoyunbinəsi kəndlərində orta məktəblərə F/O kabeli çəkilmişdir ki, sonlama və quraşdırma işləri aparılır.

- Yevlax şəhərində rabitə xidmətlərinin yüksək keyfiyyətliyi və dayanıqlığı üçün GPON (optik xidmət) layihəsinin icrası ilə bağlı sürətli, həmçinin keyfiyyətli işlər görülməkdədir.

- Duzdağ qəsəbəsi və Cırdaxan kəndi bütünlüklə, Yevlax şəhəri 32-ci məhəllə qismən, ümumilikdə 471 nəfər abunəçi F/O rabitə xidmətləri ilə təmin edilmişdir.

- Heydər Əliyev və Nizami prospektlərində, Yeni Yevlax və Q.Quliyev küçələrindəki kabel xətlərində əsaslı təmir işləri görülmüşdür. Ümumilikdə  Xətt İstismarı Sektorunda 2600 m hava rabitə xətləri texniki normaya gətirilmiş, İrəvanlı qəsəbəsi, Yevlax şəhəri OPŞ 2, OPŞ3 və 32-ci məhəllə əraziləri qismən, ümumilikdə 1233 nəfər abunəçi  FO-rabitə xidmətləri ilə təmin edilmişdir.

- Xidməti ərazilərdə yanğından mühafizə üçün mövcud tədbirlər planına uyğun olaraq ağac dirəklərinin dibləri quru otlardan təmizlənmişdir.

- Hazırda əhaliyə göstərilən geniş rabitə xidmatləri sahəsində görülmüş işlər davam etdirilir.

## TƏHSİL SAHƏSİ ÜZRƏ

- Yevlax rayonunda 56 ümumtəhsil müəssisəsi fəaliyyət göstərir. Həmin müəssisələrdən 42-si tam orta, 8-i ümumi orta, 6-sı ibtidai məktəbdir. Ağqıraq kənd ibtidai məktəb 2022-ci sentyabr ayından Balçılı kənd tam orta məktəbin tabeliyində fəaliyyət göstərir.

- Dövlət əyani ümumi təhsil müəssisələrində şagirdlərin sayı 18303 nəfər olmuşdur. O cümlədən ibtidai təhsil səviyyəsi üzrə 164, ümumi orta təhsil səviyyəsi üzrə 942, tam orta təhsil səviyyəsi üzrə 17197 nəfər olmuşdur. Həmin şagirdlərin təlim-tərbiyəsi ilə 1895 müəllim məşğul olur.

- Dövlət məktəbəqədər təhsil müəssisələrində uşaqların sayı 1443 nəfər olmuşdur.O cümlədən şəhər üzrə 630, kənd üzrə 813 nəfər olmuşdur.

- Rayon üzrə ilk peşə-ixtisas təhsil müəssisələrinin sayı 1, təhsil alanların sayı isə 79 nəfər olmuşdur.

- 2022-ci ilin sentyabr ayının 15-də Yevlax rayon Xaldan kənd kompleks tam orta məktəb və S.Qurbanov adına 6 nömrəli körpələr evi-uşaq bağçası əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Həmçinin Əkşəm, Aran qəsəbə 1 nömrəli, Gülövşə kənd tam orta və Quşçu kənd ümumi orta məktəbində cari təmir işləri aparılmışdır.

- Rayon ümumtəhsil məktəbləri üçün 2022-2023-cü tədris ilində 89984 nüsxədə dərslik, dərs vəsaiti rəqəmsal üçün vəsaitlər alınmışdır. Təhsil müəssisələri istilik sistemi ilə tam təmin olunmuşdur. 30 təhsil müəssisəsi (22 məktəb, 8 bağça) fərdi qazanxana, 7 məktəb mərkəzi istilik sistemi, 41 təhsil müəsissəsi (25 məktəb, 16 bağça) odunla, 4 təhsil müəsissəsi (2 məktəb, 2 bağça) elektriklə qızdırılır.

- 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 04.10.2022-ci il tarixli Sərəncamı ilə 1 nəfər "Əməkdar müəllim", 1 nəfər "Tərəqqi" medalı, Elm və Təhsil Nazirliyi tərəfindən isə 1 nəfər "Qabaqcıl Təhsil İşçisi" döş nişanı, 1 nəfər "Fəxri Fərman"la təltif edilmişlər.

- 2021-2022-ci tədris ilində XI sinifləri 1099 şagird bitirmişdir. Onlardan 564 nəfəri Respublikanın ali məktəblərinə sənəd vermiş, 312 yəni 45%-i qəbul imtahanlarında uğur qazanaraq tələbə adına layiq görülmüşlər. Onlardan 14 nəfəri 600-dən yuxarı, 32 nəfəri isə 500-dən yuxarı bal toplamışdır.

## SƏHİYYƏ SAHƏSİ ÜZRƏ

- 2022-ci ildə Yevlax rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsində 147 həkim 284 orta tibb işçisi fəaliyyət göstərmişdir. 2 xəstəxana 9 ambulator-polliklinika və ailə sağlamlıq mərkəzləri fəaliyyət göstərir və əhalinin 10 min nəfərinə orta hesabla 11 həkim, 22,2 orta tibb işçisi düşür.

- Yevlax Rayon üzrə ambulator tibb müəssisələrinə ümumi (profilaktik müraciətləri daxil etməklə 2022-ci il ərzində 505743 müraciət daxil olmuşdur.

- 2022-ci ildə Təcili Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına müraciət edənlərin sayı 14198 nəfər olmuşdur.

- "Yevlax rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsində 2022-ci il ərzində 1105 cərrahi əməliyyat baş tutmuşdur.

- “Yevlax rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxsində “Tibbi Göndərişlərə Nəzarət Komissiyası”nın rəyi əsasında özəl xəstəxanalara 2022-ci il ərzində 1198, Dövlət xəstəxanalarına 2022-ci il ərzində 2000 nəfər, PHŞ-yə 2022-ci il ərzində 254 nəfər xəstəyə müalicə üçün göndəriş verilmişdir. Xəstəxanada 2022-ci il ərzində 669 uşaq doğulmuş, 2022-ci il ərzində ana ölümü halı baş verməmişdir.
- “Yevlax rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxsinə 2022-ci il ərzində 4568 xəstə qəbul olunmuşdur. Stasionarda ölənlərin sayı 2022-ci il ərzində 37, evdə ölənlərin sayı 2022-ci il ərzində 678 nəfər olmuşdur.

## MƏDƏNİYYƏT SAHƏSİ ÜZRƏ

- 2022-ci ildə Yevlax rayonunda 40 klub, 45 kütləvi kitabxana və 2 muzey fəaliyyət göstərmişdir.
- Kütləvi kitabxanalarda kitab fondu 474.0 nüsxə olmuş və orta hesabla 24600 sakinə 348000 nüsxə kitab düşür.

## GƏNCLƏR VƏ İDMAN SAHƏSİ ÜZRƏ

- Rayon gəncləri arasında ideya-siyasi və fiziki tərbiyənin təşkili sahəsində Yevlax Şəhər Gənclər və İdman İdarəsi tərəfindən 2022-ci il ərzində idman sahəsi üzrə ümumi 32 tədbir keçirilib.
- Rayonda Gənclərin İnkişaf və Karyera Mərkəzi (GİKM), “Yevlax Gənclər Evi” Sosial Xidmətlər Mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlər tərəfindən müxtəlif təlim və tədbirlərə 3 mindən çox gənc cəlb olunmuşdur.
- Rayonda olan idman qurğularının sayı 114, bədən tərbiyəsi ilə məşğul olanların sayı 20482 nəfər təşkil etmişdir.

## İCTİMAİ TƏŞKİLATLAR VƏ SİYASİ PARTİYALARLA İŞ SAHƏSİ ÜZRƏ

- Azərbaycan Respublikası Prezidentinin xalqımızın xoşbəxt rifahı naminə həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin yerlərdə təbliği, ölkə Prezidentinin nitqlərinin öyrənilməsi, fərman və sərəncamlarından irəli gələn vəzifələri, ölkənin ictimai-siyasi həyatında baş verən prosesləri ictimaiyyətin bütün təbəqələrinə daha dərindən və ardıcıl şəkildə çatdırılması məqsədilə Şəhər İcra Hakimiyyətinin rəsmi saytında və facebook səhifəsində müntəzəm olaraq yazılar yerləşdirilir.
- 2022-ci ildə rayon ərazisində ictimai-siyasi vəziyyət sabit olmuşdur.
- Rayon ərazisində 11 siyasi partiya fəaliyyət göstərir. Yeni Azərbaycan Partiyasından başqa bu partiyalardan heç birinin qərargahı yoxdur.
- Rayon ərazisində dini duruma nəzarət “Dini etiqat azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu”na müvafiq olaraq tənzimlənmişdir.
- Hazırda Yevlax şəhərində, qəsəbə və kəndlərdə 22 məscid var ki, həmin məscidlərdən 16-sı fəaliyyət göstərir
- Ötən müddət ərzində rayon ərazisində dini və milli zəmində heç bir münaqişə baş verməmişdir.
- Rayon ərazisində heç bir qeyri–islam dini icması, dini ayrı–seçkiliyi təbliğ və təşviq edən qruplar yoxdur. Qeyri–hökumət təşkilatlarının və siyasi partiyaların dini məsələlərə müdaxilə halları müəyyən edilməmiş, xarici missioner təşkilatlarının və nümayəndələrinin fəaliyyətinə yol verilməmişdir.

## HÜQUQ MÜHAFİZƏ, QEYDİYYAT VƏ HƏQİQİ HƏRBİ XİDMƏTƏ ÇAĞIRIŞ SAHƏSİ ÜZRƏ

- 2022-ci ildə hüquq mühafizə orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, onun profilaktikası və qanunçuluğun möhkəmləndirilməsi istiqamətində də bir sıra işlər görülmüş, bu məqsədlə kompleks əməli tədbirlər həyata keçirilmişdir.

- İl ərzində Yevlax rayonu ərazisində 444 cinayət hadisəsi qeydə alınmış, cinayətlərin açılması 96,8% təmin edilmişdir. Həmin cinayətlərin 96-sı ağır və xüsusi ilə ağır cinayətlər olmuşdur ki, açılması 92.9% təşkil etmişdir. 2021-ci illə müqayisədə qeydiyyata alınmış cinayətlərin sayı 37 cinayət hadisəsi artmışdır. Həmçinin Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı Mübarizə sahəsində 169 cinayət faktı aşkar edilmişdir ki, onlardan 74-ü satış faktı olmuşdur. 2021-ci illə müqayisədə bu sahədə baş vermiş cinayətlərin sayı 15 fakt artmışdır.

- 2022-ci ildə 161 nikah bağlanmış, 203 boşanma halı qeydə alınmışdır. Əvvəlki ilə nisbətən boşanmaların sayı 40 fakt azalmışdır. Yevlax rayon qeydiyyat şöbəsi, Şəhər İcra Hakimiyyəti Başçısının sahə, qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri, eləcə də ağsaqqallar, ziyalılar tərəfindən boşanma hallarının azalması üçün yerlərdə əhali arasında, xüsusən gənc ailələrlə mütəmadi olaraq maarifləndirmə tədbirlərinə diqqət artırılmalıdır.

- 2022-ci ildə Səfərbərlik və Hərbi xidmətə çağırış üzrə Dövlət Xidmətinin Yevlax rayon şöbəsi tərəfindən 587 nəfər gənc həqiqi hərbi xidmətə göndərilmiş, gənclərin hərbi xidmətə göndərilməsi tapşırığına artıqlaması ilə əməl olunmuşdur.

## SƏNƏDLƏRLƏ VƏ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ ŞÖBƏSİ ÜZRƏ

- Hesabat ilində Şəhər İcra Hakimiyyətində, idarə, müəssisə və təşkilatlarda vətəndaşların qəbulu, onların təklifi, ərizə və şikayətlərinə baxılmasına diqqət artırılmışdır. Azərbaycan Respublikası Prezidenti Admnistrasiyasının tövsiyələrinə uyğun olaraq əhalinin yerlərdə qəbuluna xüsusi diqqət yetirilir.

- 2022-ci ildə Şəhər İcra Hakimiyyətində 4557 nəfər vətəndaş qəbul edilmişdir ki, onlardan 3629 nəfəri Şəhər İcra Hakimiyyəti Başçısı tərəfindən qəbul edilmişdir.

- Vətəndaşlar tərəfindən qaldırılmış məsələlərin əksəriyyəti yerlərindəcə həll edilmiş, qalanların icrası isə nəzarətə götürülərək həll olunmuşdur. Şəhər İcra Hakimiyyətində "qaynar xətt" yaradılmışdır.

- 2022-ci ildə dövlət orqanlarından və digər qurumlardan Şəhər İcra Hakimiyyətinə 1532, o cümlədən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından 435, Milli Məclisdən 23, Nazirlər Kabinetindən 29, digər qurumlardan isə 59 müraciət daxil olmuşdur.

- Vətəndaşlardan birbaşa Şəhər İcra Hakimiyyətinə 986, elektron poçt ünvanına 95 müraciət daxil olmuşdur.

- Bununla yanaşı bir sıra hallarda vətəndaşların ərizə və şikayətlərinə diqqətlə yanaşılmır, onlara səthi cavablar verilir. Ona görə də bəzi hallarda təkrar müraciətlər daxil olur.

- Şəhər İcra Hakimiyyəti başçısı Aparatının bütün şöbələri, xüsusi ilə Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi ərizə və şikayətlərə, müraciətlərə vaxtında baxılmasını və qaldırılan məsələlərin ətraflı təhlil olunmasını təmin etməlidir.